Salam, əzizim,

Mən Susanna, 16 yaşım var, qonşu Ermənistandanam. Məktubu yazanda bir anlıq çaşıb qaldım, həyəcan boğazıma dirənmişdi, ürəyimdə ağrı və qüssə hiss edirdim, lakin şüurum ayıq idi.

Bilirəm ki, sən də mənim kimi cavansan. Sənin də məqsədlərin var və sən də düşmən sözü eşidib işlətmək istəmirsən. İllər boyunca xalqlarımız qonşu kimi həmrəy yaşayıblar. Nənəm deyir ki, İcevan bazarında satıcıların əksəriyyəti azərbaycanlı idi, və biz yaxşı qonşular idik, sizin dilinizdə desək, hər erməni ailəsinin azərbaycanlı dostu var idi.

Müharibə kəlməsi eşidəndə bədənim titrəyir. Mən günahkarlar və birinci kimin başladığını axtarmağa çalışmıram. Hər iki tərəfin qaytarılmaz itkiləri oldu. Axı müharbə insanların çin olmamış arzularını məhv edir, dövlətləri viran qoyur, uşaqları, övladları analarından edir, aşiqləri bir– birindən ayırır, və ən dəhşətilisi, insanlar arasında düşmənçilik və nifrət yayır. Müharibə bizdən hər şeyi alır.

Dövlətlər müharibələrdən yayınmalıdır, necə ki, gəmiçi qəzalardan yayınır. Amma bizim dövlətlərimiz ədavəti və müharibəni təqdir edirlər. Övladını itirən anaya mükafatlar, qəhrəman adı lazım deyil, ona sadəcə öz balasını yenidən qucaqlayıb onun qoxusunu duymaq lazımdır.

Mən və sən millətlərimizin gələcəyiyik. Biz nəsillərimizi inandırmalıyıq ki, müharibə heç nə verməyəcək. Biz imkan verməməliyik ki, millətlərimizin yeni qurbanları olsun. Bizim uşaqlarımız sevginin, həmrəyliyin, parlaq gələcəyi olan hər şeylə təmin olunmuş ölkələrdə yaşamalıdırlar. 21–ci əsr sülhün və həmrəyliyin əsri olmalıdır.

Mən istəyirəm ki, dövlətlərimiz arasında açıq sərhədlər olsun. Bizdən hər kəs öz qohumunun qəbrini ziyarət edə bilsin, çünki hər iki tərəfdən olan insanların da müxtəlif yerlərdə qohumlarının məzarları vardır.

Aprel Müharibəsi bir çox cavanların ölümünə səbəb oldu, bir çox arzular çin olmamış qalıblar, bir çox məqsədlər yox oldu. Mən istəyirəm ki, başımı vicdanla yastığa qoyum, mən istəyirəm ki, millətlərimiz nifrətsiz yaşasınlar.

Gəl elə bu gündən bütün var–gücümüzlə çalışaq, ətrafımızda təbliğ edək ki, müharibə etmək lazım deyil, 21–ci əsr sivilizasiya əsridir, biz daha əziyyət çəkə bilmərik, biz daha yas tuta bilmərik, biz daha ağlaya bilmərik.

Qoy tanrı bizə və sizə ayıq düşünmək üçün ağıl, əmin–amanlıq, həmrəylik, ehtiram duyğusu versin.

Gənclik qüdrətli gücdür, əminəm ki, "Müharibə" adlanan kitabın son vərəqini məhz biz vərəqləyə "Sülh" başlıqlı kitab yaza bilərik.

Hörmətlə
Sülh tərəfdarı
Susanna